# Mətbuat Şurasının təşəbbüsü ilə çap edilən “Siz unudulmamısınız...” kitabının təqdimatı olub

İyulun 10-da Beynəlxalq Mətbuat Mərkəzində Azərbaycan Mətbuat Şurasının (MŞ) təşəbbüsü ilə çapdan çıxmış “Siz unudulmamısınız…” kitabının təqdimat mərasimi keçirilib.

AZƏRTAC xəbər verir ki, tədbirdə çıxış edən Şuranın sədri Əflatun Amaşov Prezident İlham Əliyevin Azərbaycan milli mətbuatının 140 illik yubileyinin keçirilməsi ilə bağlı Sərəncamına uyğun olaraq Bakıda, eləcə də respublikamızın digər şəhər və bölgələrində keçirilən silsilə tədbirlər barədə danışıb. Ə. Amaşov rəhbərlik etdiyi qurumun bu tədbirlərdə iştirakından, yubileyin daha yaddaqalan olması üçün gördükləri işlərdən söz açıb. O, “Siz unudulmamısınız…” kitabının da bu əlamətdar günə bir töhfə olduğunu vurğulayıb.

Bildirilib ki, ömrünü-gününü jurnalist peşəsinin məziyyətlərinə qatlaşaraq keçirmiş çoxsaylı qələm sahiblərimizin fədakar əməyi gənc nəslimiz üçün örnəkdir. Belələrinin cəmiyyətə tanıdılması keçmiş yaşantılarımızın yada salınması baxımından müstəsna əhəmiyyətə malikdir. Bu insanların hər birinin həyat və yaradıcılığı bütöv bir mərhələni, dəyərlər sistemimizi gözlərimiz önündə canlandırır. Buna görə də Azərbaycan Mətbuat Şurasının Ahıl Jurnalistlər Məclisi onların hifz olunduğu kitabın hazırlanması istiqamətində işə başladı və bu iş çox uğurlu alındı.

Ahıl Jurnalistlər Məclisinin sədri, əməkdar jurnalist Yusif Kərimov “Ərgünəş” Nəşriyyatında işıq üzü görmüş “Siz unudulmamısınız…” kitabının xarakterik xüsusiyyətlərindən söz açıb. Bildirib ki, səkkiz bölmədən ibarət nəşrdə korifey jurnalistlərimiz haqqında xatirə oçerkləri, beş ildir fəaliyyət göstərən Ahıl Jurnalistlər Məclisinin gördüyü işlərin icmalı, müxtəlif tədbirlərdən fotoşəkillər, habelə tanınmış qələm sahibləri barədə avtobioqrafik məlumatlar toplanıb. Kitab-toplunun Azərbaycan milli mətbuatının 140 illiyinə həsr olunduğunu vurğulayan Y. Kərimov onun ərsəyə gəlməsində əməyi olan hər kəsə təşəkkürünü bildirib.

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun icraçı direktoru Vüqar Səfərli çıxışında Şuranın Ahıl Jurnalistlər Məclisi tərəfindən bu kitabın ərsəyə gətirilməsini çox faydalı iş adlandırıb. O, milli mətbuatımızın 140 illik yubileyi ərəfəsində belə bir nəşrin işıq üzü görməsinin əlamətdar tarixə mühüm töhfə olduğunu diqqətə çatdırıb.

MŞ İdarə Heyətinin üzvləri – “Paralel” qəzetinin baş redaktoru Tapdıq Abbas, BDU-nun jurnalistika fakültəsinin professoru Nəsir Əhmədli, həmçinin veteran jurnalistlərdən Əlövsət Bəşirli, Məzahir Süleymanzadə, Etibar Etibarlı və başqaları kitabın xarakterik xüsusiyyətlərindən söz açaraq bildiriblər ki, nəşr klassik mətbuatımızla müasir mediamız arasında körpüdür, jurnalistikanın ictimai həyatımızdakı önəmini vurğulayan dəyərli nümunədir.

# Möhtəşəm layihə BTC-nin işə salınmasından 9 il arxada qalgəlib

Ulu öndər Heydər Əliyevin adını daşıyan Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft boru kəmərinin tam bir sistem kimi işə düşməsindən artıq 9 il arxada qaldı. Müəllifi ulu öndər Heydər Əliyev olan bu kəmər, əsrin nəhəng layihələrindən biridir. Bir həftə bundan əvvəl iyulun 13-də Türkiyənin Ceyhan şəhərində kəmərin istifadəyə verilməsi münasibətilə təntənəli mərasim keçirilmişdir.

2005-ci ilin may ayında boru xəttinə Səngəçal terminalından vurulan Azərbaycan nefti bir il yol getmiş və öz ünvanına çatmışdır. 2006-cı il iyunun 4-də BTC-nin gətirdiyi neft Ceyhan limanında ilk tankerə yüklənmiş, dünya bazarlarına göndərilmişdir. Həmin vaxtdan bu ilin birinci rübünün sonunadək BTC-nin nəql etdiyi neft 2850 tankerə yüklənmiş və dünya bazarlarına çıxarılmışdır.

Bu kəmər olduqca möhtəşəm və nəhəng kəmərdir. Onun icrası 4 milyard dollardan çox vəsaitə başa gəlib. Kəmərin keçdiyi üç ölkənin--Azərbaycan, Gürcüstan və Türkiyənin ərazisində tikintinin ən qızğın çağında 22 min nəfərdən çox insan işlə təmin olunub.

Kəmər Səngəçaldan Ceyhanadək 1768 kilometr məsafə qət edir. Borular bütün marşrut boyu torpaq altında basdırılıb. Bu da kəmərin təhlükəsizliyini qoruyan başlıca amillərdən biridir. Yerüstü infrastruktura isə 2 terminal, 8 nasos stansiyası, 101 siyirtmə məntəqəsi daxildir. Azərbaycanın payına düşən 2 nasos stansiyasının biri Səngəcalda (baş nasos stansiyası), digəri Yevlax rayonundadır. Daha 2 stansiya Gürcüstan ərazisində, 4 stansiya isə Türkiyə ərazisinədir.

Layihələşdirmə zamanı kəmərlə gündə 1 milyon barel neft ötürülməsi nəzərdə tutulurdusa, sonralar onun gücü 20 faiz artırılmış, hazırda BTC hər gün 1,2 milyon barel neft nəql etmək qabiliyyətinə malikdir.

**N. ATAKİŞİYEV.**

# Tarixi Qəbələ bu gün



Qəbələ Azərbaycanın zəngin və qədim tarixi olan guşələrindən biridir. Tarixi minillikləri əhatə edən bu zəngin diyar 900 il ərzində Qafqaz Albaniyasının paytaxtı olub.

Qəbələ adını ilk dəfə Roma alimi Böyük Plini “Təbii tarix” əsərində “Kabalana” kimi çəkmişdir. Ptolomeydə “Xabala” Musa Kalankatlıda “Kavalaka” kimi qeyd olunan şəhərin Qəbələ olduğunu ilk dəfə Azərbaycan alimi A. Bakıxanov “Gülüstani-İrəm” əsərində Qəbələ kimi göstərmişdir. Əsrlər boyu Azərbaycan torpaqlarına göz dikən yadellilərin hücumuna məruz qalmasına baxmayaraq Qəbələ şəhəri tarixin yaddaşına alınmaz, məğlubedilməz qala-şəhər kimi daxil olmuşdur. Antik şəhərin qalıqları və Qafqaz Albaniyasının əsas qapıları bu günümüzə qədər saxlanır.

Qəbələ 1068-ci ildə Şirvanşah Fəribürzün 1120-ci ildə gürcü çarı III Davidin, 1386-cı ildə Teymurləngin, 1538-ci ildə Səfəvi şahı I Təhmasibin, 1734-cü ildə Nadir şahın qoşunlarının işğalı ilə üz-üzə dayanmış, lakin bütün bunlara baxmayaraq öz əhəmiyyətini tam itirməmişdir.

Çuxur Qəbələ kəndinin yaxınlığında aparılan qazıntılar təsdiq edir ki, eramızdan əvvəl IV-III əsrlərdən başlayaraq XVIII əsrədək Qəbələ inkişaf etmiş ticarəti olan iri şəhərlərdən biri, sənətkarlıq mərkəzi olmuşdur. Nadir şahın ölümündən sonra Azərbaycanın xanlıqlara, sultanlıqlara, məlikliklərə bölündüyü vaxt qədim Qəbələ şəhər ərazisində, indiki Qəbələ rayonu ərazisində Qutqaşen sultanlığı yaradılmışdır. Daha sonra Azərbaycanın inzibati rayonlarından biri kimi 1930-cu ildə Qutqaşen rayonu yaranıb. 1991-ci ildə xalqımız müstəqillik əldə etdikdən sonra rayonun tarixi adı bərpa edilərək Qəbələ adlandırılmışdır.

Azərbaycan ikinci dəfə müstəqillik əldə etdikdən sonra Qəbələ də gündən-günə inkişaf etməyə və zənginləşməyə başladı. Bu gün Qəbələ yüksək inkişaf yolu tutub və bu yolla inkişafını daha da sürətləndirir. Rayonda müxtəlif dövrlərə aid çoxlu tarixi və mədəni abidələr var ki, bu da turistlərin diqqətini cəlb edir. Turistlər adətən səyahət edərkən gözəl, mənzərəli, həm də dincəlməyə şəraiti olan yer axtarırlar. Gözəl təbiət və inkişaf etmiş infrastrukturminlərlə turistləri isə Qəbələyə cəlb edir.

Qafqazın incisi olan Qəbələni bəzən Azərbaycanın İsveçrəsi də adlandırırlar. Qəbələ təkcə təbiətin yaratdığı möcüzə deyil, həm də insanın yaratdığı ilə yadda qalır. Son illər ərzində Qəbələdə bir neçə 5 ulduzlu otel, istirahət zonaları, ailə tipli kiçik otellər və turizm bazaları fəaliyyət göstərir. Otellərdən «Qafqaz» Riverside Hotel, «Qafqaz» Karvansaray Hotel, «Qafqaz» Resort Hotel və digərlərini göstərmək olar ki, müştərilərinə yüksək xidməti ilə seçilir.

Azərbaycanın açıq səma altında ən iri attraksiyon parkı “Qəbələnd” Qəbələdə yerləşən ən gəzməli və görməli yerlərdən biridir.

Qəbələdə bir çox sənaye obyektləri də fəaliyyət göstərir. Bunlar Qəbələ Konserv Zavodu, Beton, kərpic, Fındıq emalı və Qum-çınqıl zavodlarıdır.

Rayonda həmçinin hər il təşkil olunan və dünyanın müxtəlif ölkələrinin iştirak etdiyi klassik musiqi və estrada ifaçılarının iştirakı ilə beynəlxalq musiqi festivalı keçirilir. Təsadüfi deyil ki, məşhur Beltman Holland nişanı altında piano istehsalı üzrə fabrik məhz Qəbələdə fəaliyyət göstərir.

Həmçinin Qəbələdə 2011-ci ildə beynəlxalq standartlara cavab verən hava limanı istifadəyə verilib ki, burada sərnişinlər üçün hər cür rahatlıq yaradılmış, şəhərimizə gələn qonaqların vaxtında və rahat şəkildə uçuşu təşkil edilir.

**Aysel SÜLEYMANOVA.**
**Bum qəsəbəsi.**

# Region gənclərinin ictimai fəallığı haqqında tədbir

Qəbələ Regional QHT-lərin Resurs və Təlim Mərkəzində Yaradıcı Gənclər İctimai Birliyi tərəfindən Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının maliyyə dəstəyi ilə “region gənclərinin ictimai fəallığının artırılması sahəsində maarifləndirmə tədbirlərinin təşkili” layihəsi çərçivəsində tədbir keçirildi.

Tədbiri giriş sözü ilə Qəbələ Regional QHT-lərin Resurs və Təlim Mərkəzinin icraçı direktoru Anar Məhərrəmov açdı. Yaradıcı Gənclər İctimai Birliyinin sədri Arzu Vəlibəyova çıxış edərək layihə haqqında məlumat verdi.

Sonra təlimçi Elşən Abdulhəmidov lider və menecer anlayışı, liderlik anlayışının psixoloji təsnifatı, liderlərin seçim fərqi, liderlik üslubları, liderlərin innovasiyaya meylliliklərinə görə təsnifatı, liderlərin rolları, motivasiya və s. haqqında geniş məlumat verdi.

**Qəbələ Regional QHT- lərin Resurs və Təlim Mərkəzinin mətbuat xidməti.**